QLOBALLAŞMA VƏ MƏNFİ FƏSADLAR HAQQINDA

Əhmədova G.E.
(BDU, Tətbiqi riyaziyyat və kibernetika fakültəsi)
g.ehmedova15@gmail.com

Xülasə: *İşdə qloballaşmanın mahiyyəti açılır və qloballaşma şəraitində olan problemlər təhlil edilir. Bəzi mənfi fəsadlar göstərilir.*

Açar sözlər: *Qloballaşma, media biznes, mənfi fəsadlar, dünyanın gələcəyi*

Keçən əsrin II yarısında dünyada inteqrasiya prosesi getdikcə sürətlənməyə başladı. Bu proses SSRİ kimi fövqal dövlətin dağılması və sosializm düşərgəsinin öz-özünə məhv olmasından sonra sürətlə genişlənməyə başladı. Bununla yanaşı qapalı hərbi-siyasi, iqtisadi və ideoloji blok və birliklərin yarandığı müharibədən sonrakı illər və "soyuq müharibə" dövründən

fərqli olaraq, qloballaşma ideoloji və milli konsepsiyaların yaranmasına təkan verdi. Burada aparıcı rolu qloballaşmanın nüvəsini təşkil edən iqtisadi amil oynamağa başladı.

Qloballaşma qarşıda olan milli maneələri yıxdı. Və bütün dünya zəncirinin əsas halqası iqtisadiyyat oldu. O, bütün həyatı, vacib, aparıcı sahələrə nüfuz edən görünməz hadisə oldu, özü də məhz iqtisadi cəhətdən güclü, aparıcı olan dövlətlərdə. Bu, hər şeydən əvvəl Amerika qitəsində ABŞ, Kanada, Braziliya, Avropada Almaniya, Fransa, İngiltərə, İtaliya, Belçika, İsveç, Hollandiya, Asiyada Yaponiya, Cənubi Koreya, Malayziya, İndoneziya, Tayland, Sinqapur, Afrikada Əlcəzair və digərləri kimi ölkələrə aiddir. Təbii ki, bu hədd deyil və ölkələrin hərəkət şkalası qloballaşma şəraitində istənilən istiqamətdə dəyişə bilər. Təcrübələr göstərir ki, bu lahiyədə bir sırada yerləşmədən söhbət gedə bilməz.

Qloballaşma dedikdə maliyyə bazarlarının genişlənməsini, beynəlxalq inteqrasiya olunmuş istehsalın formalaşmasını, texnologiyanın, informasiyanın və elmi-texniki biliklərin milli sərhədlərdən kənarda yayılmasını, dünya ticarətinin liberallaşmasını, ümumi istehlak bazarının və ümumdünya keyfiyyət standartlarının qurulmasını, milli dövlətlər tərəfindən muxtar siyasət yürüdülməsi imkanlarının məhdudlaşdırılmasını özündə birləşdirən çox tərəfli və çox pilləli proses kimi başa düşülür. Həqiqətən, istər-istəməz qloballaşma dünyadakı ən iri sənaye müəssisələri, bank və ölkələrin davranış istiqamətini müəyyən edir.

Bəşəriyyətin keçdiyi inkişaf tarixi xalqların və ölkələrin taleyində inqilabi dəyişikliklərə təkan verən hadisə və proseslərlə tanınır. Çox zaman onlar dövrün komfiqurasiyalarının dəyişməsinə səbəb olaraq, bütöv bir dövrə həlledici təsir göstərmişlər. Qloballaşma – özünəməxsus dünyəvi hadisədir.

Vallerstaynın və başqa tədqiqatçıların fikrincə bu gün kapitalist dünya iqtisadiyyatı elə nöqtəyə çatmışdır ki, bu nöqtədən sonra onun qlobal sistemi kimi qaçılmaz süqutu baş verəcək. Bunun səbəblərindən bir çoxu «axırıncı mərhələ» nin durğunluğu ilə, kapitalizm üzərində dünyəvi qələbə prosesi kimi bu dünya qloballaşma vasitəsilə intibahi ilə əlaqədardır.

Kapital yığımının surətli gələcək imkanlarını məhdudlaşdıran səbəblərdən bir neçəsini misal gətirmək olar: bərpa edilməyən ucuz işçi qüvvəsi resusrlarının tükənməsi (kənd əhalisi); siyasi rejimlərin tədricən demokratlaşması prosesinin nəticəsi olan və buna uyğun olaraq muzdlu əmək nümayəndələrinin siyasi təsirinin güclənməsi ilə nəticələnən məhsul qiymətində əmək ödəmə payının artması ilə əlaqədar uzunmüddətli tendensiya baş verəcəkdir – bu tendensiya gəlir normasının azalmasına gətirib çıxarır, bu da ekoloji problemlərin və durğunluqların kəsilməsi ilə daha da dərinləşir, belə ki, qlobal dünyada kapitalist xərcləri istehsalın toksik tullantılarını «ödənişsiz» tullamaq üçün çox az yer qalmışdır.

Bazar iqtisadiyyatının bu günkü mövcudluğu əsas dilemma kimi effektilik və ədalət arasında ziddiyyəti ön plana çəkir. Şirkətlərin ixtisaslaşması və inteqrasiyası cəm kapitalının çoxalmasını mümkünləşdirir. Lakin sırf kapitalizm

məntiqi sosial ədaləti dəstəkləmir. Bu yolla iqtisadi qloballaşma ölkələr arasında ölkələrin öz daxilində qeyri bərabərliyə səbəb olmuşdur. Beynəlxalq rəqabətə dözümlülük qayğısı dövlətlərin və beynəlxalq siyəsətin başqa iştirakçılarının bu problemlə məşğul olmasını məhdudlaşdırır. Əgər biz Vallerstaynla razılaşsaq belə (Vallerstayn qloballaşmanın müasir mərhələsinə kapitalist dünya sisteminin son «ölümcül» mərhələsi kimi baxır) çox da uzaq olmayan gələcəkdə dünya miqyaslı qaçırılmaz radikal dəyişiklikləri görməyi inkar etmək mümkün olmayacaqdır. Yalnız qlobal rekonstruksiya haqqında plan yoxdur. R. Robertson (bu prosesi təsdiq edən tədqiqatçılardan biri) 1990-cı ildə qeyd etmişdir ki, 1969-cu ildən dünya qlobal qeyri dünya inkişafının təklif olunan mümkün variantları çoxdur. Xüsusilə Vallerstayn dünya sistemi nöqteyi nəzərdən kapitalist dünya sisteminin inkişaf proqnozunu verərkən üç ssenarini irəli sürmüşdür. [15]:

1. «Neofeodalizm» - regionların yerli formalaşdırılması, elit təbəqə üçün yüksək texnologiya səviyyəsinin yetəri qədər dəstəkləməsi;
2. «Demokratik diktatura» - dünya iki kostaya bölünmüşdür. 20% zəngin insan

öz zənginliyini az və ya çox miqdarda ədalətlə bölüşdürür, digərlərini isə kəskin nəzarət altında saxlayırlar (Vallerstayn bu variantı az mümkün hesab edir);

3. «Mərkəzləşmiş və ədalətli dünya» - onun tətbiq olunması toplanmış zənginliklərin yenidən paylanması mexanizmlərinin mərkəzləşdirilməsinin ortaya çıxması ilə əlaqədardır, bunlar məsrəf və istehlakçını real olaraq məhdudlaşdırmağı tələb edəcəklər (kapitalist dünya sistemindən sosialist dünya sisteminə keçidi tələb edən ən çox utopik variantdır).

Ədəbiyyat

1. Хейфец Б.А. “Метаморфоза Экономической глобализации”, Москва, Институт экономика, 2018, 41 стр.